# Nizami Gəncəvi və Yunus Əmrə irsinin ortaq məqamları müzakirə edilib



Mayın 20-21-də Türkiyənin "Eyuder Eğitim və Uzmanlar Dərnəyi" , Şamaxı rayon Sabir qəsəbə tam orta məktəbi, Azərbaycan Dillər Universiteti və "Uluslararası Dil Eğitim Dərnəyinin" birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi və Yunus Əmrə yaradıcılığında ortaq bağlar " mövzusunda Uluslararsı Kültür və Eğitim Forumu - Beynəlxalq Mədəniyyət və Təhsil Forumu keçirilib. Foruma ali təhsil müəssisələri ilə yanaşı, hər iki ölkənin ümumi orta təhsil müəssisələrindən də müəllim və şagirdlər qatılıblar.

Tədbirdən əsas məqsəd iki qardaş ölkənin elm və təhsil müəssisələrinin əməkdaşlarını bir araya gətirmək olub. Yüksək səviyyədə təşkil olunmuş forumda çox maraqlı araşdırmalar, müzakirələr və diskussiyalar keçirilib.

Araşdırmaçılar, Nizami Gəncəvi və Yunus Əmrə yaradıcılığından söhbət açıb, şagirdlər də iki klassikin əsərlərindən ibarət şeirlər səsləndiriblər, onların əsərlərindən bəhs edən rəsmlər çəkərək forum çərçivəsində keçirilən müsabiqəyə təqdim ediblər. Forumun açılışını Eyuder Azərbaycan dərnəyinin Azərbaycan təmsilçisi Gülnurə Babaşova açıb, daha sonra sözü Uluslararası Dil Eğitim Dərnəyinin rəhbəri Dincər Bektaşa verib. Onun ardınca Eyuder Eytim dərnəyinin rəhbəri Adem Çilek və Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla çıxış edərək 2 gün davam edəcək forumun işlərinə uğurlar arzulayıblar. Müxtəlif panel və saatlarda keçirilən forumda AMEA-nın Dilçilik İnstitutunun direktoru akademik Möhsün Nağısoylu, AMEA-nın Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov, Ədəbiyyat İnstitutundan dosent Xuraman Hümmətova, Əlyazmalar İnstitutundan dosent Nəzakət Məmmədli, Dilçilik İnstitutundan dosent Kübra Quliyeva, Bakı Dövlət Universitetinin professoru Sənan İbrahimov, Azərbaycan Dillər Universitetinin dosenti Aytac Zeynalova, ADU-dan filologiya üzrə fəlsəfə doktoru Aynur Beşkonak, BDU-dan fəlsəfə doktoru Sevinc Qocayeva, ADU-nun doktorantı Qismət Rüstəmov iştirak ediblər.

Türkiyədən isə Muğla Sıtkı Koçman Universitesinin professoru Namık Açıkgöz, Bandırma Onyedi Eylül Universitetinin dosenti, doktor Bəxtiyar Arslan, şair-yazar Ali Saçıkara, yazar Mustafa Özçelik, Bandırma Onyedi Eylül Universitetinin dosenti Osman Ünlü, Trabzon Universitetinin dosenti Suat Unqan, redaktor Nart Noyan, yazar Alparslan Tolga Akpınar, İstanbul Universitetinin professoru Mücahit Kaçar və bir çox elm xadimləri qatılıblar. Forum mayın 21-i axşam saatlarında öz işini yekunlaşdırıb.